Vasif Muradzadə

# Səhnə fəaliyyəti prosesində yaradıcı təxəyyül mühüm psixoloji amil kimi

*Son dövrlərin ictimai-siyasi hadisələri, müstəqil demokratik dövlətin milli özünüdərkə əsaslanan bədii yaradıcılıq nümunələri bizim teatrlarımıza və səhnə xadimlərimizə böyük yaradıcılıq qidası vermiş, onların sənətkarlıq zövqünə müsbət təsir göstərmiş, onları peşəkarlıq və ideyasızlıq təzahürləri ilə mübarizəyə ruhlandırmışdır. Aktyor və rejissorun yaradıcı təxəyyülü tamaşaçının müasir mənəvi tələbatına cavab verməlidir.*



Bunun üçün də o, tamaşaçının daxili aləminə, mənəvi dünyasına sirayət etməyi bacarmalı, insanı düşünməyə vadar edən psixoloji detalları təxəyyül süzgəcindən keçirməyə özündə təpər tapmalıdır. Bu, yeni dövrün tələblərindən, Azərbaycan xalqının mədəni ehtiyacını ödəmək əzmindən doğan nəcib bir məsləkdir ki, təhsil illərində aktyor və rejissor tələbələrimiz öz yaradıcı imkanlarını bu məqsədin həyata keçməsinə səfərbər etməlidirlər. Aktyor və rejissor kimi yetişmək, müəyyən nəzəri və əməli yaradıcılıq hazırlığı, bunun üçün isə zəngin təxəyyül imkanları tələb edir. Həm rejissor, həm də aktyor zəngin daxili və zahiri yaradıcılıq xüsusiyyətlərinə malik olmalıdır. Onlar təhsil illərində, yaradıcılıq prosesində özünün üzvi təbiətindən şüurlu surətdə istifadə etmək yollarını, səhnədə həyatı inandırıcı, təbii tərzdə əks etdirmək vasitələrini, üsullarını səylə sənət müəllimlərindən öyrənməlidirlər. Tələbə səhnədə ülvi hisslər və duyğularla yaşaya bilən, öz duyğularını tamaşaçıya yetirə bilən aktyor kimi formalaşmalıdır. Aktyor nəinki öz zahiri və daxili ifadə vasitələrini, eyni zamanda öz şüurunu, yaradıcı təxəyyülünü də tərbiyə etməli, dünyagörüşü etibarilə zamanın qabaqcıl, fəal vətəndaşı olmalıdır. O, həyatı və müasir hadisələri dərindən öyrənməlidir.

Mehdi Məmmədov özünün "Teatr düşüncələri" (5) əsərində aktyor sənəti ilə bağlı yaradıcılıq psixologiyasının tədqiqi məziyyətlərindən bəhs edərək yazır ki, incəsənət xadimləri arasında aktyor yeganə sənətkardır ki, öz müasirləri ilə bilavasitə ünsiyyətdə olur, sözün əsil və müstəqim mənasında onlarla üzbəüz dayanır, onu həyəcanlandıran hissləri, onu düşündürən fikirləri öz tamaşaçılarına özü təqdim edir, onlarla bir ürəyin döyüntüsü ilə, eyni vaxtda, eyni həyatla yaşayır. Bu mənada aktyor sənətinin ictimai-estetik mahiyyətini, yaradıcılıq psixologiyasını tədqiq və təhlil etmək, öyrənmək çox maraqlıdır.

Mədəniyyət və incəsənət aləmində, yaradıcılıq psixologiyası sahəsində tanınmış tədqiqatçı alimlərdən K.S.Stanislavski, Y.B.Vaxtanqov, P.M.Yakobson, V.Y.Zaxava, Q.V.Kristi, M.Ə.Məmmədov, T.İ.Əfəndiyev, N.Ə.Qazıyeva, L.P.Novitskaya, A.S.Paranqişvili, E.Polyakova, P.V.Simonov, L.M.Şixmatov, S.Qippius, N.A.Latışeva, V.Q.Bajenova, İ.E.Kox və başqaları səhnə yaradıcılığını, səhnə fəaliyyəti prosesində, rejissor və aktyor oyununda yaradıcı təxəyyülün imkanlarını tədqiq və təhlil etmiş, bir - birindən maraqlı, əsaslandırılmış nəticələrə nail olmuşlar. Bu alimlərin hər biri öz tədqiqatında səhnə yaradıcılığında təxəyyülün geniş imkanlara malik olduğunu bu və ya digər dərəcədə təsdiqləyir.

"Yaradıcı fəaliyyət prosesində təxəyyül daha mühüm rol oynayır. Təxəyyül fəaliyyət prosesində formalaşır. O özünün quruluşuna görə fəaliyyətin struktur xüsusiyyətlərini əks etdirir. Bu o deməkdir ki, fəaliyyətin hər bir sahəsinin öz xüsusiyyətləri vardır". (7, 378) Yaradıcı təxəyyül aktyorun səhnə fəaliyyəti prosesində də mühüm psixoloji amil kimi çıxış edir. Rolun oynanılması, eləcə də ona bütün hazırlıq işi prosesində təxəyyülün fəal iştirak etməsini tələb edir. Aktyor oyununda təxəyyül müxtəlif funksiyaları yerinə yetirir. Bu problem K.S.Stanislavski və P.M.Yakobson tərəfindən diqqətlə tədqiq edilmişdir. Bəlli olmuşdur ki, aktyorun təxəyyülü səhnə obrazını başa düşməyə səbəb olur, onun yaralıcılıqla yenidən işlənilməsində iştirak edir.

O, rolun dərk edilməsini dərinləşdirir, onun yaradıcı surətdə səhnə ifasını fəallaşdırır. Təxəyyülün köməyi ilə müəllifin nəzərdə tutduğu mənaya müvafiq olaraq rola daxilolma baş verir. Təxəyyül, müxtəlif səhnə situasiyalarını hiss etməyə, öz rollarını ifa edən digər aktyorların psixi vəziyyətini başa düşməyə kömək edir, aktyorun daxili və xarici hərəkətlərinin əsaslı, məqsədəuyğun və həqiqi olmasına imkan yaradır.

Səhnə sənəti incəsənətin bütün növləri kimi yaradıcılıqdır. Səhnə istedadlı aktoyrun timsalında canlanır, insanın bütün duyğu üzvləri yaradıcılığın təsiri altında ayağa qalxır. "Mən dərk etdim ki, yaradıcılıq hər şeydən əvvəl ruhun və bədənin bir nöqtəyə toplanması, insan təbiətinin səfərbər olması deməkdir. Burada təkcə görmək və eşitmək qabiliyyəti deyil, insanın beş duyğusunun beşi də səfərbər olur. Burada insanın bədəni, fikri, ağlı, iradəsi, hissi, yaddaşı, təsəvvüratı toplanır. Yaradıcılıq dəmlərində aktyorun ruhi və cismi varlığı bütünlüklə oynadığı şəxsin daxili aləminə bağlanmalıdır". (1, s.302)



Yüksək dünyagörüşünə, təsəvvürə, improvizə qabiliyyətinə malik olan aktyorun yaradıcı təxəyyülə əsaslanan səhnə həyatı emosionallıqla çulğalaşan bədii təxəyyül şəraitində keçir. İnsanın psixoloji qanunlarına istinad edən aktyor yaradıcılığının əsasında qavrama və müşahidə qabiliyyəti durur. Üzvi proses həyatda qeyri-iradi, öz-özünə baş verirsə, səhnədə şüurlu surətdə, iradə gücünə, yaradıcı təxəyyülün zəngin imkanları hesabına baş verir.

Bədii cəhətdən bütöv səhnə obrazına gedən yol aktyorun yaradıcı təsəvvüründən başlayır. Səhnə təsəvvürü yaradıcılıq üçün əsas mənbə rolunu oynayır. Əgər təsəvvür fəal şəkildə, məqsədyönlü tərəfə işləyirsə, deməli, gələcək səhnə obrazının təməli düzgün qoyulub. Səhnə təsəvvürü pyesi oxuduğu ilk gündən ilk təəssürata çevrilib aktyorun qəlbində, beynində özünə yer edir, kino lenti kimi aktyorun yaradıcı təxəyyülünü də işə salır. Yalnız səhnə təsəvvürünün və yaradıcı təxəyyülün gücü ilə aktyor oynadığı canlı xarakterin modelini, onun hərəkət və mübarizə xəttini, yerişini, baxışını, daxili aləmini və zahirini görüb duya və tədricən özü də bu obraza təcəssüm oluna bilər.

B.Y.Zaxava "Aktyor və rejissor sənəti" (6) əsərində göstərir ki, aktyor sənətinin qanunu, aktyorun obrazla qovuşub eyniləşməsi deyil, iki əks tərəfin - aktyor-yaradıcı ilə aktyor-obraz arasında mübarizənin hökmən mövcud olduğunu ehtimal edən dialektik vəhdətdir.

Səhnədə aktyorun bütün şüurlu səyləri obrazla qovuşmaq məqsədini güdməlidir. Aktyorun bir yaradıcı kimi həyatı və bir obraz kimi daxili həyatı qarşılıqlı təsir və bir-birinə keçmə vəziyyətində olur. Nəticədə onlar vəhdət təşkil edirlər, lakin bu vəhdətdə aparıcı amil heç vaxt sönməyən, daim yaradıcı prosesə istiqamət verən aktyorun fəal yaradıcı "mən"idir. Belə ki, nəticə etibarilə heç bir iki "mən" yoxdur. Yalnız aktyorun bütöv şəxsiyyətinin bircə yeganə "mən"i vacibdir ki, onun da şüurunda, psixikasında eyni zamanda iki bir-birinə təsir edən proses gedir.

Tələbələr praktik dərslərdə, istehsalat təcrübəsi zamanı, səhnə ustaları ilə ilk tanışlıqlarından teatr tamaşalarındakı həyatilik, həqiqət, yüksək sənətkarlıq və ciddi yaradıcılıq intizamını öz vərdişlərinə çevirməli, yaradıcılıq etikası tələblərinə ciddi yanaşmalıdırlar. Professor T.İ.Əfəndiyevin "Azərbaycan dramaturgiyasında metodlar" əsərində qeyd etdiyi kimi: "Aktyor etikası teatrda düşünmək və düşündürmək kimi əlverişli yaradıcılıq mühiti yaradır, aktyor və rejissoru böyük sənət dünyasına daxil edir. İntizamsızlıq isə bu prosesdə disqarmoniya yaradan lüzumsuz bir haldır. Yaradıcılıq prosesi insanın idrak və emosiyasını vahid bir ideala - böyük sənətə yönəldir. Ağıl və mədəniyyət tələb edən yaradıcılıq etikasına etinasız yanaşmaq kamillik və sənətkarlıq əlaməti sayıla bilməz. Teatrda sənətkarlığın zirvələrinə yüksəlmək üçün yaradıcılıq etikasının tələblərinə ciddi yanaşmaq lazımdır". (2, s.474-475)

Aktyor və rejissor sənəti ixtisaslarında təhsil alan tələbələrin təcrübəsində onların yaradıcılıq qabiliyyətlərini inkişaf etdirən bir sıra tədbirləri müəyyənləşdirdik. Bu tədbirlər bir tərəfdən tələbələrin müşahidə bacarığını inkişaf etdirməyə, müşahidəçilik kimi mühüm xarakter əlamətinin tərbiyəsinə, digər tərəfdən isə tələbələrə öz fikirlərini, təəssürat və müşahidələrini inandırıcı, maraqlı, yığcam və bədii bir şəkildə ifadə etmək bacarıq və vərdişlərini aşılamağa, onların şifahi nitqini inkişaf etdirməyə, təxəyyülünü zənginləşdirməyə, təfəkkürünün tənqidilik və müstəqilliyini daha da inkişaf etdirməyə yönələn tədbirlərdir.

Tələbələrə bunlarla bərabər, şəxsi müşahidələri, təxəyyül, təsəvvür, düşüncə və təəssüratları ilə əlaqədar olan maraqlı tapşırıqlar vermək lazımdır. Bu, onların həm yaradıcı təxəyyüllərinin, həm də elmi dünyagörüşlərinin inkişafına kömək etmiş olar.

Yaş artdıqca, tələbələr kursdan-kursa keçdikcə qazanılmış bilik, bacarıq və vərdişlər yaradıcı təxəyyülün inkişafı, zənginliyi üçün zəmin yaradır. Təxəyyülün inkişafı təfəkkür və iradənin inkişafı ilə bilavasitə əlaqədardır. Tələbələri təxəyyül prosesində aşağıdakı fəaliyyət növlərinə alışdırmaq lazımdır:

a) mən görürəm;

b) mən eşidirəm;

c) mən qavrayıram;

ç) mən fikirləşirəm;

d) mən özümü müxtəlif yerlərdə və müxtəlif vəziyyətlərdə təsəvvür edirəm.

Pyes tamaşada fəaliyyət göstərən şəxsin məlumat mənbəyidir, amma pyesin məzmunu aktyora onu maraqlandıran bütün detalları dəqiqləşdirməyə imkan vermir, çox şey aydınlaşmamış qalır, əlavələr etmək və tamamlanma tələb olunur.

Yaradıcılığa başlamazdan əvvəl öz əzələlərini nizama salmaq, onları anlamağı öyrənmək və yiyəsi olub idarə etmək lazımdır. C.Barri yazır: "Müəllif bir pyes yazır, aktyorlar başqa bir pyesi oynayır, tamaşaçılar isə üçüncü bir pyesi görürlər". (3, s.576)

Fiziki hərəkətlərin əsaslandırılması və konkretləşdirilməsi üçün belə əlavələr tamamilə vacibdir. Nəyisə, lazım olan detalı pyesdə tapmayanda aktyor və rejissorun borcudur ki, öz təxəyyülünün köməyi ilə həmin boşluğun yerini doldursun. Pyes aktyoru kifayət qədər özünə cəlb edə bilməyəndə, xəyala, təxəyyül uydurmasına böyük ehtiyac duyulur.

Təxəyyül tamaşada fəaliyyətdə olan şəxsə yeni maraqlı cizgilər, obrazı canlandırmaq, qabarıq və gərgin, kəskin vəziyyətlər yaratmağa sirayət etmək iqtidarına malikdir. Tədris-istehsalat təcrübəsi keçdiyi müddətdə tələbələr öz



ixtisasları ilə real surətdə tanış olurlar. İxtisas hazırlığının daha səmərəli yol və üsullarının intensiv surətdə axtarılması bu dövrdə tələbələrin davranışı üçün səciyyəvi haldır, həyatdakı və mədəniyyətdəki dəyərlərin çoxuna tələbələrin münasibəti yeniləşir. Onların intibahlar qabında təxəyyülün bütün formaları işə düşür. Obrazın yaradılması, təxəyyül prosesində təsəvvürlərin təhlil-tərkib yolu ilə işlənilməsi qanununa əsaslanır. Professor Ə.Əlizadə öz tədqiqatında (4) təxəyyülün inkişaf və tərbiyə edilməsindən bəhs edərək göstərir ki, yaradıcı təxəyyül surətlərinin təşəkkül tapması prosesini öyrənərkən, adətən iki cəhəti fərqləndiririrlər. Təxəyyül surətləri ...keçmiş qavrayış materiallarının təhlil və tərkib edilməsi yolu ilə yaradılır. Buna görə də yaradıcı təxəyyül surətlərinin əmələ gəlməsi qanunauyğunluqlarını şərh etmək üçün, hər şeydən əvvəl təhlil-tərkib proseslərinin xüsusiyyətlərini aydınlaşdırmaq lazımdır. Lakin bu hələ təxəyyül fəaliyyətinin bir cəhətini təşkil edir. Yaradıcı təxəyyül surətlərinin təşəkkül etməsində ikinci mühüm cəhət onların dəqiqləşdirilməsi ilə əlaqədardır.

Sonuncu kursda təhsil alan tələbələr istehsalat təcrübəsi zamanı teatrın tamaşalarındakı həyatiliyə, yüksək sənətkarlıq və ciddi yaradıcılıq intizamına valeh olur və fərdi təxəyyüllərini bu zəmində kökləyirlər.

Aktyor və rejissor yaradıcılığında insan psixologiyasının sirlərini öyrənmək, onlara nüfuz edə bilmək vacib olduğu kimi, səhnədə həm fiziki, həm də zehni iş görmək lazımdır. Səhnədə fiziki işi, hərəkəti aktyor psixotexnikasının elementləri kimi başa düşmək lazımdır. Fiziki iş, hərəkət və psixoloji iş səhnədə həmi-



şə vəhdətdə olmalıdır. Aktyor həmişə hərəkətin zahirini yox, onu doğuran daxili istək, səbəb və vəziyyəti özünün diqqət mərkəzində saxlamalıdır. Fiziki iş, hərəkət pyesin mahiyyətini, rolun daxili həyatını anlamaq üçün bir vasitəyə çevrilməlidir. Səhnədə fiziki işlər ancaq cismən və zahirən görülmür, onlar mütləq obrazın daxili niyyəti, istəkləri ilə bağlı olmalıdır.

Aktoyr psixofiziki işlər, hərəkətlər ilə məşğul ola-ola pyesin və rolun məğzini, onların daxilində saxlanmış fikirləri, istək və arzuları öyrənir, onları duyur və yaşadır. Yaradıcı təxəyyül aktyora və rejissora təşəbbüskar olmaq və müstəqil obraz yaratmaq üçün böyük imkan verir.

Fiziki hərəkətlər üsulu aktyor və rejissor işindəki, onların qarşılıqlı münasibətlərindəki bir sıra normal olmayan halları aradan qaldırıb, yaradıcılıq prosesinin daha əməli, daha faydalı və daha səmərəli keçməsi üçün əlverişli şərait yaradır. Aktyorun səhnədəki oyun tərzi təbiilik və inandırıcılığa xidmət etməlidir. Səhnə sənətinin əsasını canlı obrazların arasında baş verən hadisələr, tərəfi-müqabillərin gördükləri işlər, etdikləri hərəkətlər təşkil edir. Rejissor və aktyor ixtisaslarında təhsil alan tələbələr birinci növbədə özlərini psixoloji cəhətdən səhnəyə hazırlamağı öyrənməlidirlər. Aktyorun danışığı, hərəkətləri, bütün səhnə həyatı o qədər inandırıcı və təbii olmalıdır ki, dinləyənlərdə, baxanlarda heç bir şübhə oyatmasın.

Aktyorun və rejissorun təxəyyülü, intellekti o qədər yüksək olmalıdır ki, obrazın inandırıcı alınması üçün səhnədə guya yaşayır kimi görünməməli, doğrudan yaşamalıdır; o belə görünməməli, məhz belə olmalıdır. O, səhnədə həmişə canlı insan olaraq qalmalı, doğrudan hiss etməli, düşünməli, yəni müəllifin təklif etdiyi vəziyyətlərdə həyat məntiqini və üzvi təbiətin qanunlarını dürüst gözləyərək lazım olan işləri görməlidir.

Aktyor təxəyyülü öz spesifikliyinə görə musiqiçi, yazıçı, rəssam və s. digər sənətkarların təxəyyülündən fərqlənir. Aktyor üçün xəyala qapılmaq daxilən oynamaq deməkdir. Xəyala qapılaraq aktyor təxəyyül obyektini özündən kənarda olmadan rəsm edir (rəssamın edəcəyi kimi), özünü isə obrazda iş görən kimi hiss edir. Aktyor üçün xəyala qapılmaq iş görmək deməkdir, lakin əslində olduğu kimi yox, hələlik yalnız təxəyyüldə, öz yaradıcı xəyallarında iş görmək deməkdir. Səhnədə öz obrazı ilə qovuşmaqdan ötrü aktyor qabaqcadan təxəyyülündə onunla təkrar-təkrar qovuşmalıdır. Aktyorun yaradıcı təxəyyülü beş hiss üzvünün (görmə, eşitmə, lamisə, iy və dadbilmə) yaratdığı duyğuların beşini də təkrar edə bilir. Yazıçının təxəyyülü kimi, aktyorun da yaradıcı təxəyyülünə bütün beş növ təsəvvür daxildir. Lakin aktyor təxəyyülündə bu təsəvvürlər deyil, işin, hərəkətin icrası ilə bağlı təsəvvürlər əsasdır. Hər cür iş, hərəkət isə, bildiyimiz kimi, psixofiziki aktdır. Buna görə də heç bir hərəkət bədən əzələlərinin iştirakı olmadan icra edilə bilməz. Əgər biz təxəyyülümüzdə bir iş görməyi canlandırırıqsa, onda hökmən əzələ yaddaşını fəal vəziyyətə gətiririk. Aktyor başlıca olaraq öz əzələləri ilə xəyala qapılır, həm də "müşahidə edir" - ona görə də əzələ yaddaşını inkişaf etdirmək aktyor üçün çox mühüm məsələdir.

Aktyor sənətinin, yaradıcılıq axtarışlarının son məqsədi bədii təcəssümdür, bədii həqiqətdir. Bədii həqiqət isə səhnədə təkcə informasiya vasitəsilə, adicə məntiq yolu ilə əldə edilmir. Aktyor öz yaradıcılığında, ifa elədiyi obrazların səhnə yozumunda zəngin istedad, odlu temperament, emosional hərarətlə pardaxlanmış yüksək şüur və intellekt nümayiş etdirməlidir. Burada isə onun köməyinə hər cür yaradıcılıq fəaliyyətinin zəruri ünsürü olan təxəyyül gəlir. Bədii obraz yaradıldığından bədii təxəyyül ön plana keçir. Bədii təxəyyül - keçmiş duyğuların, qavrayışların, təsəvvürlərin, hisslərin, təəssüratların xəyalda, xatirədə bərpa edilməsi və şüurlu surətdə yenidən işlənib hazırlanması əsasında bədii obrazlar yaratmaq bacarığıdır, həmin obrazları yaratmaq prosesi və onun nəticəsidir. Geniş ümumiləşdirmə və tipikləşdirmə prosesindən ibarət olan sənətkar təxəyyülü yaradıcılıq fəaliyyətinin bütün mərhələləri üçün səciyyəvidir və buna aktyor öz şəxsi yaradıcılığında istinad etməlidir. Əlbəttə, yaradıcı təxəyyül zəminində. Lakin bu zaman bir cəhəti nəzərə almaq lazımdır ki, yaradıcılıq fəaliyyəti olduqca mürəkkəb və geniş əhatəlidir. Odur ki, yaradıcılığın psixoloji əsası da çoxcəhətli və rəngarəngdir. Bu fəaliyyətdə bütün idrak proseslərinin, eləcə də, emosional-iradi proseslərin iştirakı zəruridir.

Həm aktyor, həm də rejissor ixtisaslarında təhsil alan tələbələr obraz üzərində işləyərkən daim yeni yollar, vasitələr haqqında düşünməli, heç vaxt əldə etdikləri nəticələrlə kifayətlənməməlidirlər. Hər hansı bir pyes üzərində işləmək aktyor və rejissordan böyük psixoloji hazırlıq tələb edir.

Rejissor və aktyor hazırlığı zamanı dünya teatrının yaradıcılıq prinsiplərindən də kifayət qədər bəhrələnmək, mütərəqqi iş təcrübəsi və üsullarından yerli-yerində istifadə etmək və bu zaman milli çalarlara xüsusi yer vermək lazımdır. Belə olarsa, rejissor və aktyorlarımız yüksək uğurlar qazanar, müstəqil respublikamızı dünya arenalarında lazımınca təbliğ edə bilərlər. Ona görə də tələbələr təhsil illərində mədəniyyət ocaqları və incəsənət xadimləri ilə təmasda dünyagörüşlərini artırmalı, yaradıcı təxəyyüllərini zənginləşdirməlidirlər. Rejissor tamaşanı hazırlayarkən, aktyor obrazı yaradarkən təxəyyül və yaradıcılıq prinsiplərinə söykənməlidir.

**İstifadə edilmiş ədəbiyyat**


1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Bakı: Çinar-Çap, 2002, 620s.
2. Əfəndiyev T.İ. Azərbaycan dramaturgiyasında metodlar. Bakı: Elm, 2002, 512s.
3. Əli Polad. Üç min ilin hikməti. Bakı: Yurd, 2004, 720 s.
4. Əlizadə Ə.Ə. Şagirdlərdə təxəyyülün inkişafı və tərbiyə edilməsi. Bakı: Maarif, 1965, 130 s.
5. Məmmədov M.Ə. Teatr düşüncələri. Bakı: İşıq, 1977, 231 s.
6. Zaxava B.Y. Aktyor və rejissor sənəti (Ruscadan tərcümə Ə. Quliyev və H.Sadıqzadənindir). Bakı: Maarif, 1984, 330 s.
7. Станиславский К.С. Работа актера над собой: ч.1. М.:Искусство, 1985, 479с.